# "Məqsədimiz soyqırımını dünyaya çatdırmaqdır"

## Elşad Eyvazlının "Böyüməyən uşaqlar" kitabının təqdimatı keçirilib

**Dünən Azərbaycan Yazıçılar Birliyində Modern.az saytının baş redaktoru, Parlament Jurnalistləri Birliyinin sədri Elşad Eyvazlının "Böyüməyən uşaqlar" kitabının təqdimatı keçirilib. Mərasimdə Yazıçılar Birliyinin üzvləri, millət vəkilləri, KİV rəhbərləri və kitabın qəhrəmanları - Xocalı faciəsi zamanı hər iki valideynini itirmiş gənclər iştirak ediblər.**



Təqdimatda Yazıçılar Birliyinin katibi Rəşad Məcid bildirib ki, "Böyüməyən uşaqlar" kitabı Xocalı faciəsini şahidlərin dili ilə hər kəsə çatdırır.

Tanınmış tənqidçi Bəsti Əlibəyli də təqdim olunan kitabla bağlı fikirlərini bölüşüb. Onun sözlərinə görə, bu soyqırımına görə Ermənistan mühakimə olunanadək təbliğat işimizi davam etdirməliyik.

Yazıçılar Birliyinin sədri Anar kitabın onda xüsusi təəssürat yaratdığını vurğulayıb: "Kitab çox dəhşətli faktları üzə çıxarır. Bu layihəni davam etdirmək, kitabın ingilis dilli versiyasını daha geniş yaymaq lazımdır. Mən deyərdim ki, hətta bu kitabı erməni dilinə də tərcümə etmək lazımdır. Bəlkə onlarda da vicdanlı adam tapılar və oxuyar, nələr törədildiyini bilərlər".

Milli Məclis üzvü Fazil Mustafa isə artıq Xocalı həqiqətlərini dünyaya yeni formada yaymağın vaxtının çatdığını bildirib: "Bəzən Xocalı faciəsinin çatdırılmasında bayağılaşmış formalar seçilir. Halbuki, bu faktları elə bir üslubda, elə bir janrda təqdim etmək olar ki, bütün dünya qəbul etsin".

Millət vəkili Adil Əliyev hesab edir ki, biz Xocalı faciəsinə görə ədalət mühakiməsi qurulmasına nail olmalıyıq: "Çalışmalıyıq ki, Ermənistan rəhbərliyi soyqırımına görə cavab versin".

Təqdimatda çıxış edən TRT-nin İtaliyadakı təmsilçisi Dündar Kesaplı bu cür kitabların xarici dildə çapının çox önəmli olduğunu qeyd edib: "Bu günlərdə İsveçrə radiosuna müsahibəmdə yenə də qondarma erməni soyqırımı ilə bağlı sual verdilər. Mən də onlara Xocalı soyqırımından bəhs etdim. "Niyə bu məsələ gündəmə gətirilmir" sualına cavab verə bilmədilər".

Millət vəkili Jalə Əliyeva Xocalı soyqırımı haqqında yalnız hadisələrin ildönümü ərəfəsində danışılmasını düzgün hesab etmədiyini bildirib: "Çünki unutduğumuz zaman uduzmağa başlayırıq".

Milli Məclis üzvü Tahir Rzayev Xocalıda valideynlərini itirən uşaqlara böyüməyi arzulayıb: "Siz böyüyün, ancaq dəhşətlərimiz, faciələrimiz böyüməsin".

"Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı kitabın ərsəyə gəlməsini təqdirəlayiq hal kimi dəyərləndirib. O, gələcəkdə kitabın daha çox dillərə tərcümə olunmasını arzulayıb.

"İrəli" Gənclər Birliyinin sədri Mirhəsən Seyidov kitabın əsasında "25-lər" filminin çəkildiyini qeyd edib. Onun sözlərinə görə, "İrəli" tərəfindən hazırlanan bu film Xocalı faciəsini görən uşaqlardan birinin həyatını əks etdirir.

Sonda çıxış edən kitabın müəllifi Elşad Eyvazlı isə "Böyüməyən uşaqlar"ın missiyasından söz açıb: "Məqsədimiz soyqırımını dünyaya çatdırmaqdır. Düzdür, dünya, bəşəriyyət çox dəhşətli qətllərin şahidi olub. Ona görə də onlara Xocalını daha fərqli, özlərinin anladığı dildə çatdırmalıyıq".

Tədbirdə qeyd olunub ki, "Böyüməyən uşaqlar" kitabının müxtəlif dillərə tərcümə olunub nəşr edilməsi "Xocaliya ədalət" kampaniyası tərəfindən tam dəstəklənib. Həmçinin QHT-lərə Dövlət Dəstəyi Şurasının dəstəyi ilə bu kitab iki dilə tərcümə olunub. Yaxın vaxtlarda isə "Böyüməyən uşaqlar" daha dörd dildə işıq üzü görəcək.